**Azərbaycan.** - 2024.- 30 oktyabr. - № 239. - S. 9.

# Qərb COP29 üçün Azərbaycana "sağ ol" deməkdənsə...

## Yenə də ədalətsiz və haqsız mövqe nümayiş etdirir

**Qurban Məmmədov**

**Evsahibliyi edəcəyimiz COP29-a sayılı günlər qalıb. Vaxt azaldıqca isə Qərb mediasında ölkəmizə qarşı qərəzli, reallıqdan uzaq yazıların sayı artır. Açıq hiss olunur ki, bəzi qüvvələr Azərbaycanda belə bir mötəbər tədbirin keçirilməsinə qısqanclıqla yanaşırlar.**

Bizi gah neft-qaz ölkəsi kimi ətraf mühitə ziyan vurmaqda, gah ermənilərə qarşı "zorakılıq"da, gah da daxildə "insan hüquqlarını tapdalamaq"da ittiham edirlər. Amma bütün bunlar həqiqətdən uzaq, məntiqsiz və təəccüblüdür. Çünki bir ölkənin karbohidrogen ehtiyatları ilə zənginliyi heç də onun iqlim dəyişikliyinin fəsadlarını aradan qaldırmaq üçün konfrans təşkil etməyə haqqı çatmadığını deməyə əsas vermir. Azərbaycan neft və qaz hesabına iqtisadiyyatını inkişaf yoluna çıxarıb, şaxələndirib, sosial problemlərini həll edib, infrastrukturunu yenidən qurub. İndi isə karbon emissiyalarının minimuma endirilməsi yönündə layihələr reallaşdırır.

Prezident İlham Əliyev 2-ci Şuşa Qlobal Media Forumunda diqqətçəkən bir məqama toxunaraq Azərbaycanın COP29-a evsahibliyi qərarı verilən ilk vaxtlarda Qərb mediasının hücumlarının intensivləşdiyini, sonrakı mərhələdə bu sahədə müəyyən sakitlik yarandığını, iqlim konfransı ərəfəsində isə ölkəmiz əleyhinə yazıların yenidən artacağını, ittiham və böhtan kampaniyalarının çoxalacağını proqnozlaşdırmışdır: "Bu, gözlənilən bir hal idi və bunu müzakirə etdiyim bir çox şəxslərlə danışıqlarımda, - həmkarlarımı, dövlət və hökumət başçılarını nəzərdə tuturam, - onlar mənə deyirdilər ki, bu, Azərbaycan üçün böyük başağrısı olacaq. Əlbəttə, biz dərk etdik ki, hücumlara məruz qalacağıq. Biz əlbəttə, bunu proqnozlaşdıra bilmərik ki, ittihamların mövzusu necə olacaqdır? Amma əminəm ki, kifayət qədər ittihamlar olacaqdır. Biz nədə ittiham olunurduq? Neft və qazla zəngin olan ölkə olduğumuz üçün. Bu, çox təəccüblü bir haldır. Yeri gəlmişkən, COP28-in ev sahibi olan Birləşmiş Ərəb Əmirlikləri də eyni mövzuda ittihamlarla üzləşmişdi".

Aşkar şəkildə görünür ki, COP29-un Azərbaycanda keçirilməsini istəməyən bəzi dairələr erməni lobbisinin təsiri altındadır. Onlar separatçıların Xankəndidə oynadıqları köç şousunu və dinc soydaşlarımızın kütləvi qətliamında birbaşa iştirak etdiklərinə görə saxlanılan erməni cinayətkarlarına azadlıq tələblərini qabardaraq çirkin məqsədlərinə çatmağa çalışırlar. Bu bir faktdır ki, dövlətimiz ilk gündən Qarabağda yaşayan ermənilərə yardım əlini uzatmış, onların ölkədə yaşayan digər etnik azlıqlar kimi eyni hüquq və azadlıqlara sahib olacaqlarını, Azərbaycan vətəndaşlığını qəbul edərlərsə, hər bir imtiyazla təmin olunacaqlarını bəyan etmişdir. Lakin onlar Ermənistan rəsmiləri və daşnakların hədə-qorxuları ilə könüllü şəkildə Qarabağdan çıxıb getmişlər. Bu yerdə bir faktı xatırladaq: COP29-a evsahibliyi etmək üçün öz namizədliyini irəli sürən İrəvan sonradan məhz Azərbaycanın xeyrinə geri çəkilmişdi. İndi isə Qərbdə Qarabağ ermənilərinin hüquqlarını müdafiə adı altında Azərbaycana qarşı qarayaxma kampaniyasına start verilib. Görəsən, 20 faiz torpaqlarımızın 30 ildən çox müddətdə işğalda qalmasına, talanmasına, bir milyondan çox soydaşımızın qaçqın, 4 minə yaxın vətəndaşımızın itkin düşməsinə göz yuman bəzi Qərb dairələri Azərbaycanın öz suverenliyini bərpa etməsi ilə niyə barışa bilmir?! Bu azmış kimi, indi də bir qrup şəxs Bakıda saxlanılan erməni separatçılarının azadlığı tələbini irəli sürür. Görəsən, dünyanın hansı ölkəsində terrorçuluqla məşğul olan, dövlət suverenliyinin pozulmasına cəhd edən şəxslər cəzasız qalır? Təbii ki, heç bir ölkəsində. Elə ona görə də Azərbaycanda da heç bir kəs haqq etdiyi cəzadan qaça bilməyəcək.

Bütün bunlar bir tərəfdən ifrat erməni təəssübkeşliyindən irəli gəlirsə, digər yandan həmin dövlətlərin özlərinin də qazıntı yanacağından istifadəsindən və digər ekocinayətlərindən qaynaqlanır. Qərb özünə məxsus olan neft-qaz yataqlarını kortəbii şəkildə istismar edir və bu zaman atmosferə atılan karbon emissiyasını nəzarətdə saxlamır. Ölümsaçan sınaq poliqonları da onlara məxsusdur. Üstəlik, Böyük Britaniya, ABŞ, Kanada, Norveç və Avstraliya kimi ölkələr qlobal arenada iqlim təəssübkeşləri cildində təqdim olunsalar da, 2020-ci ildən bəri verilmiş bütün yeni neft və qaz lisenziyalarının üçdəikisindən çoxuna (67 faiz) sahib və cavabdehdirlər. İndi ölkəmizin məsələyə ciddi və səmimi münasibətini, Azərbaycanın və ətrafımıza toplaşıb zəruri həyati problemin həllinə töhfə verməyə çalışanların prinsipiallığını görüb özlərinin ekoloji fəlakət törədən qanunsuz əməllərini, fəaliyyətlərini ört-basdır etmək istəyirlər.

"Ədalətsiz və ikili standartlara əsaslanan işıqlandırmaya gəlsək, biz bilirik ki, COP tədbirinin biri Qlazqoda - Böyük Britaniyanın neft hasil etdiyi bir bölgəsində keçirilirdi və heç kəs o zaman Böyük Britaniyanı ittiham etmirdi ki, onların neft və qazı var. Bu, məhz bizim dediklərimizin həqiqi olduğunu sübut edir. Bu tədbirin əhəmiyyəti əlbəttə ki, bütün bu mənfi hallardan qat-qat çoxdur. Çünki bu, qlobal miqyasda ən mühüm hadisələrdən biridir. Bu, dünyada beynəlxalq arenada birnömrəli konfransdır və ilk dəfədir ki, postsovet məkanında keçirilir. Bizim üçün bu, misilsiz bir şansdır ki, ən yüksək liqaya daxil oluruq. Biz təkcə təşkilati baxımdan işlər görmürük, mahiyyət baxımından da təşəbbüslər irəli sürürük. Biz inkişaf etmiş ölkələrlə fəal şəkildə işləyirik. Biz Qlobal Cənub və Qlobal Şimal arasında körpülər qururuq", - deyə dövlətimizin başçısı həmin forumda bildirmişdi.

Qərbin COP29-la əlaqədar tutduğu mövqe növbəti riyakarlıq nümunəsidir. Kim bilmir ki, hazırda bütün dünya ölkələrinin, o cümlədən Avropanın enerji təhlükəsizliyi birbaşa neft və qaz yanacağı hesabınadır. Azərbaycan isə "yaşıl enerji" istehsalı üçün intensiv çalışmalar həyata keçirir və bu sahəyə böyük investisiyalar qoyur. Mötəbər tədbirə evsahibliyi etməklə də ölkəmiz ətraf mühitin mühafizəsinə verdiyi önəmi, böyük mənada  sağlam bir dünyanın gələcək nəsillərə ötürülməsinə biganə qalmadığını göstərir.